# Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Qazaxıstan Respublikası Dövlət Gəlirləri Nazirliyinin Gömrük Komitəsi arasında qarşılıqlı yardım göstərilməsi qaydaları haqqında

# Memorandum

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Qazaxıstan Respublikası Dövlət Gəlirləri Nazirliyinin Gömrük Komitəsi bundan sonra Tərəflər adlandırılacaq,

10 iyun 1997-ci il tarixdə Almatı şəhərində imzalanmış Azərbaycan Respublikası Hökuməti və Qazaxıstan Respublikası Hökuməti arasında gömrük işi sahəsində əməkdaşlıq haqqında Sazişin (bundan sonra Saziş) 16-cı maddəsinə əsaslanaraq,

Sazişin həyata keçirilməsi mexanizmini müəyyən etmək məqsədilə,

aşağıdakılar barədə razılığa gəldilər:

### *Maddə 1*

Tərəflər bu Memorandumun I və II Əlavələrində göstərilən mərkəzi aparatların və ayrı-ayrı gömrükxanaların müəyyən bölmələrinin rəhbərlərinə Sazişdə göstərilən müddəaları həyata keçirmək məqsədilə birbaşa əlaqələr yaratmaq və saxlamaq səlahiyyəti verilir.

Zəruri hallarda hər bir Tərəf digər Tərəfi xəbərdar etməklə Əlavələrdə dəyişikliklər və əlavələr edə bilər.

### *Maddə 2*

Sazişin fəaliyyətini qiymətləndirmək və Gömrük orqanlarının fəaliyyətinə dair digər aktual sualları müzakirə etmək məqsədilə gömrük idarələri rəhbərlərinin görüşü iki ildə bir dəfə keçiriləcəkdir.

### *Maddə 3*

Əməkdaşlıq haqqında Sazişə əsasən, gömrük idarələri sorğu əsasında yüksək gömrük rüsumları təyin edilmiş mallar və gömrük dəyərinin aşağı salınması barədə məlumatla təmin edəcəklər və həmçinin idxal və ixrac zamanı qadağan və məhdudiyyətlər tətbiq edilən malların siyahılarını mübadilə edəcəklər.

### *Maddə 4*

1. Əməkdaşlıq haqqında Saziş çərçivəsində yardım göstərmək haqqında sorğular və onlara cavablar yazılı surətdə, o cümlədən faks, teleks və ya digər rabitə vasitələrilə təqdim olunacaqlar.

2. Təxirəsalınmaz hallarda sorğular şifahi surətdə qəbul oluna bilər, lakin onlar təcili olaraq yazılı formada təsdiq olunmalıdırlar. Sorğu edən Tərəfin tələbilə faks, teleks, yaxud digər rabitə vasitələrilə verilmiş məlumatlar məktubla təsdiq olunur.

3. Sorğu alan gömrük idarəsi təcili olaraq tələb olunan məlumatları və sənədləri təqdim edir.

### Maddə 5

Yardım göstərilməsi haqqında sorğu rus, ingilis dillərində və ya sorğu ünvanlamış Tərəf üçün münasib sayılan başqa dildə təqdim ediləcəkdir.

### Maddə 6

Yardım göstərilməsi haqqında sorğuya aşağıdakı məlumatlar daxildir:

a) sorğu edən gömrük idarəsinin adı;

b) tələb olunan tədbirlər;

v) sorğunun mövzusu və səbəbi;

q) sorğuya aid olan qanunlar və digər normativ aktlar;

d) barəsində təhqiqat həyata keçirilən fiziki və hüquqi şəxslər haqqında daha dəqiq və müfəssəl məlumat.

### Maddə 7

Bu Memorandum imzalandığı gündən qüvvəyə minir və Sazişə müvafiq olaraq fəaliyyətini dayandırır.

Bakı şəhərində «7» aprel 2000-ci il tarixdə Azərbaycan, qazax və rus dillərində iki nüsxədə imzalanmışdır, bütün mətnlər eyni qüvvəyə malikdir.

| | |
|---|---|
| ***Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi adından*** | ***Qazaxıstan Respublikası Dövlət Gəlirləri Nazirliyinin Gömrük Komitəsi adından*** |

---

*Əlavə 1*

# Xarici ölkələrin Gömrük orqanları ilə birbaşa əlaqələr saxlayan səlahiyyətli şəxslərin siyahısı

**Qazaxıstan Respublikası Dövlət Gəlirləri Nazirliyinin Gömrük Komitəsi**

Qazaxıstan, 473000 Astana, Puşkin küçəsi, 166

| | | |
|---|---|---|
| Nukenov Maratkalı Ordabayoğlu | Sədr | Tel.: (3172) 752902,<br>faks (3172) 753109, 753016 |
| Kunanbayev Dauren Aşurbeyoğlu | Sədrin müavini | Tel.: (3172) 750447 |
| Yumambayev Beybit Teneloğlu | Sədrin müavini | Tel.: (3172) 117701 |
| Nurqəliyeva Səile | Beynəlxalq münasibətlər idarəsinin | Tel.: (3172) 752818 |

| | | |
|---|---|---|
| Məhəmmədrəhimqızı | rəisi | |
| Baybolov Muxtar Kazbekoğlu | Gömrük rejimlərinə və gömrük rəsmiləşdirilməsinə Nəzarətin təşkili Baş İdarəsinin rəisi | Tel.: (3172) 752814 |
| Yumambekov Bolat Axaşbekoğlu | Gömrük gəlirləri Baş İdarəsinin rəisi | Tel.: (3172) 752913 |
| Kabdraxmanov Dulan Tokenoğlu | Qaçaqmalçılıq və gömrük qaydalarının pozulması ilə mübarizə üzrə Baş İdarənin rəisi | |

---

*Əlavə 2*

# Xarici ölkələrin Gömrük orqanları ilə birbaşa əlaqələr saxlayan səlahiyyətli şəxslərin siyahısı

**Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi**

Azərbaycan, Bakı 370073, İnşaatçılar Prospekti, 2

| | | |
|---|---|---|
| Heydərov Kəmaləddin Fəttah oğlu | Sədr | Tel.: (99412) 388080<br>Faks: (99412) 981836 |
| Əliyev Aydın Əli oğlu | Sədrin 1-ci müavini | Tel.: (99412) 389262 |
| Mirzəyev Rəfael Xalid oğlu | Sədrin müavini | Tel.: (99412) 383445 |
| Həsənəliyev Rza Cahangir oğlu | Sədrin müavini | Tel.: (99412) 972135 |
| Bağırov Şahin Soltan oğlu | Gömrük Nəzarətinin Təşkili Baş İdarəsinin rəisi | Tel.: (99412) 977460 |
| Muradov Güloğlan Babasən oğlu | Qaçaqmalçılıq və Gömrük Qaydalarının Pozulması ilə Mübarizə Baş İdarəsinin rəisi | Tel.: (99412) 386324 |
| Vahabov Mirqasım Fazil oğlu | Maliyyə-Tarif və Valyuta Nəzarəti Baş İdarəsinin rəisi | Tel.: (99412) 387497 |
| Yusifov Ceyhun Ramiz oğlu | Xarici Əlaqələr Şöbəsinin rəisi | Tel./faks: (99412) 934067<br>Tel.: (99412) 380019 |

---

***24 mart 2001-ci il tarixli, 655 nömrəli Sərəncamı ilə təsdiq edilmişdir («VneshExpertService»).***

---

© *VneshExpertService*